

# MƏNDƏN SİZƏ YADİGAR

***Məlumdur ki, həyatın çox qəribə qanunları var və bu qanunlara əsasən kimsə böyük, amma yadda qalmayan bir ömür yaşayır. Yaradıcı adamlar isə öz yazıları ilə oxucuların ürəyinə yol tapıb yenidən onların qəlbində yaşamaq haqqını qazanırlar. Neftçi-şair Arif Ərəbovun ölümündən sonra «Vışka» qəzetində 30 oktyabr 2020-ci il tarixli sayda onun həyatı, şəxsiyyəti, keçdiyi ömür yol haqda qısa məlumat və «Qalx ayağa, Azərbaycan» şeiri dərc olundu. Baxmayaraq ki, ixtisasca A.Ərəbov peşəkar neftçi olub o, ədəbiyyatı çox sevirdi, və həmişə öz fikirlərini, duyğularını, həyata və vətənə olan məhəbbətini poetik sözlə ifadə edirdi.***

Arif Yagub Oğlu Ərəbov mavi Xəzər dənizinin sahilində yaşıllığa qərq olmuş Astara Rayonun Şahağac kəndində ziyalı ailəsində anadan olmuşdur. Arifin atası Yaqub Mirzə Mustafa oğlu Ərəbov Astara rayonunda tanınmış pedaqoq olmuşdur. Babası Mirzə Mustafa Aqa Bəhram oğlu Ərəbov savadlı ziyalı Lənkəran simenariyasında (birinci buraxılış) təhsil almışdır. Nəsillikcə Talış xanı Mir Mustafa xanın yaxın qohumu olmuşdur. Lənkəran şəhər orta məktəbini bitirib, Arif Azərbaycan Neft və Kimya institutuna daxil olub, mühəndis-energetik ixtisasına yiyələnmişdir. Ordu sıralarında xidmət etmiş və baş leytenant rütbəsini almışdır. Ordudan qayıtdıqdan sonra Azərbaycan Dövlət Neft şirkətinin müxtəlif müəssisələrində işləmişdir. Sonuncu iş yeri, SOCAR-ın Sosyal inkişaf idarəsində olmuşdur. O hələ gənc yaşlarında rəsm çəkməyi və şeir yazmağı sevirdi. Şeirlər narahat bir ürəyin çırpıntıları, səmimi, oxunaqlı və ürəyə yatandır. İstedadlı neftçi-şairdir şeirlərində vətən məhəbbəti, yurd sevqisi daha da qabarıq ifadə olunur. Bu gün 66 yaşında vəfat etmiş Arif Ərəbovu yad edib Neftçi Ədəbi Məclisi xətti ilə neftçi şairimizin şeirlərinin bir neçəsini dərc edərək ondan bizə yadigar qalan vətən sevgisini, doğulduğu evə olan məhəbbətini «Vışka» qəzetinin səhifəsində əbədi həqq edirik. Onu da qeyd etmək istərdi ki, Arif müəllimin işıqlı dünyanı, onun təbiətini, dağını-daşını və insanları, dost-qohumu, tələbə və iş yoldaşlarını, tanış-bilişlərini sevən böyük bir ürəyi var idi.

## ASTARA

Talış dağlarının yaşıl örpəyi
Gəlin tək bəzənib Xəzərə baxır.
Xəzər ayna kimi təmiz ürəyi
Sahillə öpüşür dağlara baxır.
Şıltaq gur çayları aşır dağları
Dərələr keçərək sahilə gəlir.
Heyrətə gətirir baxça-bağları
Sevinc həsrətiylə o dilə gəlir.
Dağların sehirli cığırlarıyla
Axan şəlalələr mahnı oxuyur.
Yaşıl örpəyinin naxışlarıyla,
Təbiət ehcazkar xalı toxuyur.
Bürünür hər tərəf yaşıl örpəyə
Yaşıl don geyinmiş bizim Astara!
Dalğalar sahili gəlir öpməyə
Qoy qalsın sahildə izim, Astara!
Mən sənə heyranam, gözüm Astara!
Talış dağlarının ətəklərindən,
Xəzərə tökülən axar çay üstə
Gözəl, cazibədar bir şəhərim var.
Heyranam mən onun gözəlliyinə.
Vurğunun olmuşam özəlliyinə.
Geniş küçələri, gözəl bağları,
Qumlu sahilləri, yaşıl dağları.
Bəzəyir şəhəri yaşıl örpəklə,
Qonaq qarşılayır açıq ürəklə.
Axar bulağının tükənməz dadı
Yanar bulaqların silinməz adı,
Təbiət gözəllik bəxş etmiş ona
Talış dağlarının yaşıl qoynuna.
Barlı bağlarıyla, çay kollarıyla,
Sitrus meyvələri, gül kollarıyla,
Gözəl don geyinmiş bizim Astara.
Sevimli Astara, izim Astara.
Mən sənə heyranam, gözüm Astara!

**10.11.09.**

## DAŞLAR

Yer üzündə hər tərəfə səpələnmiş,
Topa-topa, qalaq-qalaq,
Bəzən tək-tək
Kiçik daşlar, böyük daşlar!
Danışmağa dilləri yox,
Səssiz durur bölük daşlar.
Qiyməti yox, dəyəri yox,
Sanki onlar unudulmuş miras kimi,
Çilik daşlar.
Düşünməyin bu belədir,
O daşlardan yaradılır
Gözəlliklər səltənəti, füsunkarlıq,
Ehcazkarlıq özəlliklər səltənəti.
Tanrı vermiş o daşlara gözəl rənglər;
Həm ağ, həm də al-qırmızı,
Qara, əlvan bəzən qonur çalarlarla
Gözəl rənglər.
Yaradanın qüdrətiylə möcüzələr
Yaradılır bu daşlarla,
Abidələr yaradılır bu daşlarla.
Bu daşlarla bənd qorulur,
Bu daşlarla kənd qorulur.
Daşların sən sirrinə bax?
Bir-birinə dayaq olur,
Zirvələrə qalxır daşlar,
Bəzən onlar mayak olur
Uzaqlara baxır daşlar.
Qiz qalasi!
Əzəməti heyran edir insanları
Daşlar ilə yaranmışdı bu möhtəşəm,
Məğrur qala,
Zirvələrə ucalmışdı cəsur qala!
Üzərindən Odlar yurdun alovu ilə
Şölələnən məşəli var.
İşıq saçır, alovlanır,
Şəfəqiylə nur çiləyən bir əli var.
Çox möhtəşəm Qız qalası!
İnsan oğlu hazırlayır
Bu daşlardan abidələr və heykəllər
Qoy var olsun yanar qəlblər,
Bacarıqlı qadir əllər.
Daşlar bəzən dilə gəlir,
İnsanları haraylayır,
Könüllərə ilham verir...
Qobustanın qayaları,
Qalaq-qalaq sal daşları,
Qara, əlvan, al daşları.
Üzərində həkk olunmuş qədim izlər,
Qədim üzlər.
Əsrlərdən bizə çatan qan yaddaşı,
Qaval daşı.
Təbil səsi, muğam səsi.
Haraylarır insanları cəngi səsi,
Könüllərə fərəh verir
Muğamların rəngi,səsi,
Şunı, Rastı,
Çahargahı,Qarabağın şikəstəsi
Elin gözəl, şən nəğməsi...
Daşlar bəzən susur, dinmir.
Qapıları kilidlənmiş zindanları xatırlayır.
Sükutundan bir kimsənin xəbəri yox.
Bu sükutu insanların arasına
Fələk yayır,
İzi qalsın insanlara,
İzi qalsın nəsillərə.
Fəqət, bu daş adi daşdır,
Qəbir daşı, baş daşıdır,
İnsanların yaddaşıdır!
Aman Tanrım!
Sən vermişdin bu qüdrəti,
İnsanlara həyat verən isti nəfəs, hərarəti.
Uçan daşlar!..
Bu daşlardan qığılcımlar yaranmışdı...
Nəsillərdən-nəsillərə adlayaraq
Şığıyaraq qartal kimi,
İşıq saçar şimşək kimi,
Yayılaraq çiçək kimi,
Uçur, uçur səyyarə tək,
Parıldayır yer üzündə.
Uçan daşlar — səyyarələr!
Bu daşlar da uça-uça yoxa çıxır,
Bəzən yanıb külə dönür,
Bəzən dönür adi daşa,
Daşlar da var, qızıl əllər naxış verir
O daşlara.
Cilalanır o çevrilir sehirlənmiş bir daş-qaşa.
Gah zümrüdə, gah yaquta ya almaza.
Yer üzünə səpələnir kiçik daşlar,
Böyük daşlar, topa-topa bölük daşlar,
Yaddan çıxmış miras kimi çilik daşlar,
Ömrümüzə, günümüzə lazım olan
Adi daşdır... Qoruyaq biz o daşları.
Qoruyaq biz yer üzündə hər bir daşı.
Əsrlərdən bizə qalan qan yaddaşı.

**24.09.09.**

## QIZ QALASI

Baxıram uzaqdan Qız qalasına,
Necə əzəmətli görünür qala!...
İllər, qərinələr keçsə, anbaan
Yenə əzəməlli görünür qala.
Sahildə dayanıb məğrur, möhtəşəm
Dənizi seyr edir, qoruyur qala.
Dəniz təlatümlü, bəzən mülayim
Olsa da, sevinir, oyuyur qala.
Zaman, vaxt ötüşür durur əzmlə,
Tarix şahididir ötən illərin.
Zaman ötüşsə də, illər ötsədə,
Yeni əsrimizə kök salmış dərin.
Bakı, Qız qalası! hünər qalası,
Zəfərlər yaraşır sənin hüsnünə.
Qoynunda boy atır sevinc mayası
Yüksəlir göylərə o gündən-günə.
Ziyarət eləyir Qiz qalasını
Elin igidləri, qəhrəmanları.
And içir, and içir vətən eşqinə
Qoruyur göz təki şanlı diyarı!..
Sübh çağı üfiqdən günəş boylanır.
Üzü gülümsəyir məğrur qalanın.
Şərqin qapısının qibləgahıdır
Sanki, simvoludur Azərbaycanın!

**20.04.09.**

## QƏLƏBƏ EŞQİ

Azərbaycan! Odlar yurdu!
Övladların sevir səni.
Hər bir anda vətən üçün,
Torpaq üçün, canlarını qurban
Verər mərd ərənlər sevir səni.
Düşmənlərə təslim olma,
Qoru bizim min illərdən
Xalqa qalan qan yaddaşı.
Hünər göstər, qəhrəman ol,
Odlar yurdun vətəndaşı!
Zülmətlərə işıq saçan
Qüdrətinlə ətrafa bax,
Əsrlərdən bizə qalan
Şöhrətinlə ətrafa bax
Qalx ayağa Azərbaycan!
Sən seçginən zəfər yolu!
Qürurlu ol, mübariz ol, mətinli ol.
Türk əskəri qüdrətini göstərmişdi
Əsrlərdən bizə gələn qəhrəmanlıq,
Döyüş yolu, qələbəyə səfər yolu.
Ayıl, ayıl!
Şanlı Şərqin qibləgahı!
Qara qüvvə, namərd əllər
Qarış-qarış torpaqları apardılar,
Yurdumuzu viran edib qopardılar...
Şuşam mənim, cənnət bağım.
Artıq yoxdur Qarabağım!?
Zaman keçir, aman keçir, yaman keçir.
Artıq illər bir-birini əvəz edir.
Əzab çəkir elimizin oğulları
Bu dünyadan qız, gəlinlər nakam gedir,
Yoxa çıxır dastanları, nağılları.
Torpağımız yağı düşmən əlindədir.
Yalan vədlər, yalan sözlər dilindədir.
Gülüşümüz, sevincimiz görünməyir?
Nə etməli? Düşmüşük biz yad əllərə,
Aldanmışıq, aldanmışıq neçə kərə?
Xain düşmən sevinməsin əməliylə
«İnam lazım qələbəyə», — ürək deyir.
Vətən oğlu, vətən qızı, övladlarım!
Ucaldaq biz məşəlləri yüksəklərə.
Şəfəq salsın yanar məşəl elimizə,
Sevinək biz zəfər çalan ilimizə!
Odlar yurdu, Azərbaycan!
Hünərlə sən, qələbəyə addımlar at,
Mətinli ol. Ayıl, ayıl Azərbaycan!
Qarabağın zirvəsində
Şuşamızın sinəsində
Bayrağımız dalğalansın.
Dədə Qurqud öyüdüylə
Zirvəsində od qalansın.
Alovunun işığından
Nur çilənsin yurdumuza.
Güvənək biz Ordumuza!
Vaxtılə Odlar yurdun nəğmələri
Yayılmışdı eldən-elə.
Zəngəzurdan Vediyədək,
İrəvandan Göyçəyədək,
Ozan səsi, Dədə Qurqud nəsiyyəti,
Xoş niyyəti yayılmışdı dildən-dilə.
Qoca Qafqaz, dəmir qapı
Dərbəndimiz Təbrizədək, Gilanadək,
Savalandan Turanadək
Oğuz elin adətiylə yaşayırdı,
Qüdrətini, şərəfini daşıyırdı.
Lakin nankor düşmənlərin
Məkrli, çər əməlləri,
Yağıların bəd əlləri torpaqları
Qətrə-qətrə, bölüm-bölüm parçaladı.
Zəmiləri, tarlaları, elimizi-obamızı
Dilim-dilim hay taladı.
Artıq yetər! Yol verməyək azğınlara,
Yol verməyək qırğınlara.
Qoruyaq biz ölkəmizi.
Qoy qorusun Tanrı bizi!
Vətən bizi səsləyir.
Gəlin səsə səs verək.
Bu səs haray səsidir,
Bu səs imdad səsidir.
Dözməyir artıq ürək.
Bu səsə biz səs verək.
Səsləyir bizi Vətən!
Şəhid olub, ürəyimi sənin üçün bölərəm tən.
Gözləyir bizi torpaq!
Əskər kimi keşiyində duraram mən üzü ağ.
Bəsləyir bizi Ana!
Qoruyaram qeyrətini, şərəfini, kül olaram
Torpağına qatılaram yana-yana.
Əziz Ana! Doğma torpaq!
Şanlı Vətən! Hər üçünüz müqəddəsdir!
Daha bəsdir!
Ayılın Siz ey insanlar!
Əgər vətən sənindirsə,
Aç gözünü torpağa bax.
Əgər torpaq sənindirsə,
İzini qoy torpaq üstə,
Dizini qoy torpaq üstə,
Ək zəmini nemətə bax.
Əgər nemət sənindirsə, gül-cicəkli,
Bol məhsullu bir bağa bax.
Əgər bağlar sənindirsə, büsata bax,
İşıq saçan çırağa bax.
Əgər bulaq sənindirsə,
Əyil su iç, sən dağa bax.
Əgər dağlar sənindirsə,
Ucal, ucal zirvəyə bax.
Gör necə də əzəmətli, vüqarlıdır Ana Vətən!
Azərbaycan, Azərbaycan!
Əjdadımız, məkanımız ordadırsa,
Köçkünə bax, itənə bax.
Zəfər çalmaq eşqiylə sən,
Vətənə bax. Sən sola bax, sən sağa bax.
Gör necə də gözəlliklər məskənidir.
Azərbaycan!
Azad et sən doğma yurdu,
Azad et sən bu torpağı, bu Vətəni
Ey qəhrəman, şanlı Ordu!
Qalx ayağa, Azərbaycan, Azərbaycan!
İlhamla sən qabağa bax!
Gələcəyə inamla sən addımını
Ata-ata qabağa bax!
Qalx ayağa, mətinli ol Azərbaycan,
Qüdrətindən ilham alsın ana Vətən.
Ay-ulduzlu bayrağımız dalğalansın,
Qarabağda düşmənimiz tez basılsın!
Həkk olunsun canımıza, qanımıza
Zəfər yolu, hünər yolu
Şölələnsin Odlar yurdun məşəlləri,
Alovunda işıqlansın azadlığın nurlu yolu!
Yaşa, yaşa Azərbaycan, Azərbaycan!
Qalx ayağa, Azərbaycan! Azərbaycan!

**15.09.09.**